**https://doi.org/10.58225/tim.2026-1-461-468**

**Ş.E.Məmmədova**
***magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti***
***mammadova.sohrat@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 26.01.2026*
*The article was received by editorial board on 26.01.2026*
*Статья принята к печати 26.01.2026*

# DAXİLİ DÖVLƏT MALİYYƏ NƏZARƏTİ SİSTEMİNİN İNSTİTUSİONAL İNKİŞAF STRUKTURU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

*Tədqiqat daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişaf strukturunu və onun təkmilləşdirilməsi istiqamətlərini araşdırmağa həsr olunmuşdur. Müasir idarəetmə şəraitində daxili dövlət maliyyə nəzarəti dövlət maliyyə resurslarının səmərəli, məqsədyönlü və qanunvericiliyə uyğun istifadəsini təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Araşdırmada maliyyə nəzarətinin hüquqi-normativ bazası, təşkilati strukturu, funksional alətləri və onların qarşılıqlı əlaqəsi sistemli şəkildə təhlil edilmişdir. Müəyyən edilmişdir ki, maliyyə nəzarətinin effektiv fəaliyyəti büdcə intizamının gücləndirilməsinə, maliyyə risklərinin qabaqlanmasına və ictimai vəsaitlərə etimadın artırılmasına birbaşa təsir göstərir. Nəticələri göstərir ki, daxili maliyyə nəzarətinin institusional inkişafında hüquqi çərçivənin möhkəmliyi, nəzarət orqanlarının funksional imkanları və peşəkar potensialı həlledici rol oynayır. Eyni zamanda, mühasibat uçotu, daxili audit və risklərin idarə olunması mexanizmlərinin inteqrasiyası nəzarət sisteminin səmərəliliyini artıran əsas amillər kimi müəyyən edilmişdir. İnformasiya texnologiyalarının tətbiqi maliyyə əməliyyatlarının real vaxt rejimində izlənməsinə, analitik təhlillərin aparılmasına və qərar qəbuletmə prosesinin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Beynəlxalq maliyyə nəzarəti standartlarının tətbiqi və qlobal təcrübənin nəzərə alınması maliyyə hesabatlılığının şəffaflığını və müqayisəliliyini təmin edir. Maliyyə nəzarəti sisteminin institusional inkişafı və davamlı təkmilləşdirilməsi dövlət maliyyə siyasətinin effektiv icrası üçün mühüm əhəmiyyət daşıyır.*

***Açar sözlər:*** *dövlət nəzarəti, institusial inkişaf, maliyyə nəzarəti,nəzarət mexanizmləri, beynəlxalq* standartlar.

## GİRİŞ

Daxili dövlət maliyyə nəzarəti sistemi, müasir idarəetmə modelində dövlət maliyyə resurslarının səmərəli, məqsədyönlü və qanunvericiliyə uyğun istifadəsini təmin edən əsas institusional mexanizmlərdən biridir. Bu sistem, dövlət qurumlarında maliyyə intizamının gücləndirilməsinə, büdcə vəsaitlərinin şəffaf idarə olunmasına və maliyyə risklərinin qabaqlanmasına xidmət edir. Daxili maliyyə nəzarətinin institusional inkişaf strukturu, hüquqi-normativ baza, təşkilati mexanizmlər və funksional nəzarət alətlərinin qarşılıqlı əlaqəsi əsasında formalaşır. Maliyyə nəzarətinin əsas institusional komponentləri sırasında normativ hüquqi çərçivə mühüm yer tutur. Qanunvericilik aktları, dövlət maliyyə nəzarətinin məqsədlərini, səlahiyyətlərini və icra mexanizmlərini müəyyən edir. Bu çərçivə, büdcə prosesinin bütün mərhələlərində nəzarətin həyata keçirilməsini, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarının standartlaşdırılmasını təmin edir. Hüquqi tənzimləmələrin institusional səviyyədə düzgün tətbiqi, dövlət maliyyə fırıldaqçılığı risklərinin azalmasına və ictimai vəsaitlərə etimadın artmasına şərait yaradır. Xüsusilə, maliyyə nəzarətinin institusional inkişafı, nəzarət orqanlarının funksional imkanlarının genişləndirilməsi və peşəkar potensialının gücləndirilməsi ilə sıx bağlıdır. Bu baxımdan, mühasibatlıq, daxili audit və risklərin idarə olunması sistemlərinin

inteqrasiyası nəzarətin effektivliyini artıran əsas amillərdən hesab olunur. Məlumat mübadiləsi, hesabatlılıq və şəffaflıq prinsipləri, daxili maliyyə nəzarətinin institusional strukturunun fəaliyyətində əsas dayaq nöqtəsi kimi çıxış edir. Daxili dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi, qiymətləndirmə meyarlarının tətbiqi vasitəsilə həyata keçirilir. Bu meyarlar, dövlət qurumlarının maliyyə vəziyyətini, büdcə gəlir və xərclərinin balansını, likvidlik səviyyəsini və maliyyə risklərinin idarə olunma dərəcəsini əks etdirir. Etibarlı qiymətləndirmə mexanizmləri, nəzarət sistemində mövcud olan institusional boşluqları aşkar etməyə və onların aradan qaldırılmasına imkan verir. Hüquqi tələblərlə uyğunluğun təmin olunmaması isə qiymətləndirmə nəticələrinin obyektivliyinə mənfi təsir göstərə bilər.

## ƏSAS HİSSƏ

### Maliyyə nəzarətinin əhəmiyyəti

Daxili dövlət maliyyə nəzarəti sistemi, dövlət maliyyə resurslarının idarə olunmasında şəffaflığın artırılmasını və iqtisadi inkişafın davamlılığının təmin edilməsini hədəfləyən mühüm institusional mexanizmdir. Bu sistem, dövlət sektorunda maliyyə intizamının möhkəmləndirilməsi, büdcə vəsaitlərinin səmərəli istifadəsi və maliyyə risklərinin vaxtında aşkarlanması baxımından xüsusi əhəmiyyət daşıyır. Daxili maliyyə nəzarətinin institusional inkişaf strukturu, maliyyə idarəetməsinin müasir tələblərinə uyğun olaraq elektron maliyyə sistemlərinin tətbiqi və şəffaf hesabat mexanizmlərinin formalaşdırılması ilə sıx bağlıdır (Ivanyos, J., 2007). Maliyyə nəzarətinin əhəmiyyəti, ilk növbədə, dövlət maliyyə siyasətinin effektiv icrasının təmin olunması və iqtisadi sabitliyin qorunması ilə müəyyən edilir. Bu sistem, dövlət qurumlarında maliyyə əməliyyatlarının izlənməsi, qeydiyyatı və yoxlanılması üçün zəruri institusional mühit yaradır. Eyni zamanda, maliyyə nəzarəti büdcə prosesinin bütün mərhələlərində qanunvericiliyə uyğunluğun təmin edilməsinə və maliyyə pozuntularının qarşısının alınmasına xidmət edir. Bu baxımdan, daxili maliyyə nəzarəti dövlət maliyyə idarəçiliyinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Maliyyə nəzarəti sisteminin institusional inkişafı, nəzarət funksiyalarının gücləndirilməsi və idarəetmədə koordinasiyanın artırılması ilə xarakterizə olunur. Bu proses, büdcə davamlılığının təmin edilməsi, maliyyə resurslarının məqsədyönlü bölüşdürülməsi və dövlət xərclərinin effektivliyinin yüksəldilməsi ilə müşayiət olunur. Maliyyə nəzarət mexanizmləri yalnız maliyyə pozuntularının aşkar edilməsinə deyil, həm də bu pozuntuların yaranma səbəblərinin aradan qaldırılmasına yönəlmiş tədbirləri əhatə edir. Şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan idarəetmə yanaşması, ictimai vəsaitlərə etimadı gücləndirir və dövlət maliyyə sisteminin etibarlılığını yüksəldir. Bu amillər, həmçinin xarici investorlar üçün sabit və proqnozlaşdırıla bilən iqtisadi mühitin formalaşmasına müsbət təsir göstərir. Daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişaf strukturu və onun təkmilləşdirilməsi, dövlət maliyyə idarəçiliyinin səmərəliliyini artıran əsas istiqamətlərdən biridir. Hüquqi çərçivələrin möhkəmləndirilməsi, daxili mühasibat və nəzarət sistemlərinin inkişafı, maliyyə mədəniyyətinin formalaşmasına şərait yaradır və ölkə iqtisadiyyatının uzunmüddətli dayanıqlılığını təmin edir.

### Daxili dövlət maliyyə nəzarəti

Daxili dövlət maliyyə nəzarətinin hüquqi aspektləri, müasir dövlət maliyyə idarəçiliyinin formalaşmasında əsas institusional sütunlardan biri kimi çıxış edir. Bu sahə, dövlətin iqtisadi siyasətinin icrasında hüquqi əsasları müəyyən etməklə yanaşı, büdcə prosesinin təşkili, icrası və nəticələrinin qiymətləndirilməsini sistemli şəkildə tənzimləyir. Daxili maliyyə nəzarətinin hüquqi mexanizmləri, dövlət maliyyə resurslarının məqsədyönlü və səmərəli istifadəsini təmin etməklə bərabər, ictimai etimadın möhkəmləndirilməsinə və maliyyə şəffaflığının artırılmasına yönəlmişdir (Zdyrko, N. G., və b.,2022). Maliyyə nəzarətinin institusional inkişafı, hüquqi çərçivənin yalnız normativ tənzimləmə funksiyası ilə məhdudlaşmamasını, eyni zamanda maliyyə siyasətinin hazırlanması və həyata keçirilməsi prosesinə fəal təsir göstərməsini nəzərdə tutur. Bu baxımdan, maliyyə mühasibatlığı, daxili audit, dövlət satınalmaları və fiskal idarəetmə mexanizmləri vahid institusional struktur daxilində qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Hüquqi normalar, bu strukturun effektivliyini təmin edən əsas vasitə kimi maliyyə intizamının qorunmasına və maliyyə əməliyyatlarının nəzarət altında saxlanmasına xidmət edir (Vovk, V., və

b.,2020). Bu nəzarəti sisteminin hüquqi təminatı, dövlət orqanlarının və vəzifəli şəxslərin maliyyə fəaliyyətinə dair məsuliyyətlərini aydın şəkildə müəyyən edir. Qanunvericilik aktları, büdcə vəsaitlərinin istifadəsində səlahiyyət bölgüsünü dəqiqləşdirir, maliyyə pozuntularının qarşısının alınması üçün institusional mexanizmlər yaradır. Bununla yanaşı, nəzarət prosesində ictimaiyyətin və kütləvi informasiya vasitələrinin iştirakının nəzərdə tutulması, hesabatlılıq mühitinin formalaşmasına və dövlət maliyyə idarəçiliyinin açıq xarakter almasına şərait yaradır. Maliyyə nəzarətinin hüquqi aspektləri, məsuliyyət və cəza mexanizmlərinin tətbiqi ilə sistemin dayanıqlığını gücləndirir (Bagwe, C., 2024). Bu mexanizmlər, maliyyə resurslarının qeyri-qanuni istifadəsinin qarşısını almağa, korrupsiya risklərini azaltmağa və dövlət vəsaitlərinin ictimai maraqlara uyğun yönəldilməsini təmin etməyə imkan verir. Hüquqi tənzimləmələrin institusional səviyyədə tətbiqi, maliyyə nəzarətinin yalnız reaktiv deyil, eyni zamanda preventiv xarakter daşımasına şərait yaradır. Büdcə resurslarının bölüşdürülməsi, istifadəsi və sosial-iqtisadi təsirinin qiymətləndirilməsi funksiyalarını birləşdirən kompleks bir idarəetmə aləti kimi çıxış edir. Mülkiyyət hüquqlarının qorunması və maliyyə resurslarından səmərəli istifadə prinsipləri, mövcud hüquqi çərçivənin əhəmiyyətini daha da artırır. Bu yanaşma, büdcə sisteminin rasional idarə olunmasına və dövlət maliyyə strategiyalarının effektiv icrasına şərait yaradır. Həmçinin hüquqi aspektlər və onun institusional inkişaf strukturu, dövlət idarəçiliyinin möhkəmləndirilməsində və iqtisadi dayanıqlığın təmin edilməsində həlledici rol oynayır. Sistemli və hüquqi əsaslara söykənən maliyyə nəzarəti, dövlət müəssisələrinin maliyyə fəaliyyətinin təhlilini asanlaşdırır, investisiya qərarlarının əsaslandırılmasını gücləndirir və uzunmüddətli iqtisadi artım üçün əlverişli şərait yaradır (Eliseeva, E., və b.,2012).

**Cədvəl 1**

**Dövlət maliyyə nəzarəti sisteminin elementləri**

| **Əsas anlayış** | **Nəzarət istiqaməti** | |
|---|---|---|
| **Dövlət maliyyə nəzarəti** | Federal büdcənin və büdcədənkənar dövlət fondlarının icrasına nəzarət | Dövlət büdcəsinin formalaşdırılması, icrası və büdcədənkənar fond vəsaitlərinin qanunvericiliyə uyğun istifadəsinin yoxlanılması |
| | Pul dövriyyəsinə nəzarət | Milli valyutanın dövriyyəsi, pul kütləsinin həcmi və dövriyyə mexanizmlərinin tənzimlənməsi |
| | Kredit resurslarından istifadəyə nəzarət | Dövlət və dövlət zəmanətli kreditlərin məqsədyönlü və səmərəli istifadəsinin təmin edilməsi |
| | Maliyyə və vergi güzəştlərinin verilməsinə nəzarət | Vergi və maliyyə güzəştlərinin qanunvericilik tələblərinə uyğun tətbiqinin və əsaslandırılmasının yoxlanılması |
| | Dövlət ehtiyatlarının vəziyyətinə nəzarət | Dövlət ehtiyat fondlarının formalaşdırılması, saxlanılması və istifadəsinin monitorinqi |
| | Daxili və xarici dövlət borcunun vəziyyətinə nəzarət | Dövlətin borc öhdəliklərinin idarə edilməsi, borcun həcmi və strukturunun maliyyə dayanıqlılığı baxımından qiymətləndirilməsi |

***Mənbə:*** *Kozhina, V.O., və b., 2021*

Bu kontekstdə, daxili dövlət maliyyə nəzarəti sisteminə daxil olan ayrı-ayrı institutların fəaliyyətinin qiymətləndirilməsi göstərir ki, nəzarət subyektləri tərəfindən tətbiq olunan metod və təşkilati formalar arasında ardıcıllığın olmaması, əsasən metodoloji bazanın yetərincə formalaşmaması və rəqəmsallaşma şəraitində səlahiyyət bölgüsündə mövcud olan çatışmazlıqlarla bağlıdır. Nəzarət fəaliyyətinin planlaşdırılması, təşkili və icrası mərhələlərində vahid yanaşmanın olmaması, sistemin ümumi effektivliyinə mənfi təsir göstərir və institusional əlaqələrin zəifləməsinə səbəb olur.

Daxili dövlət maliyyə nəzarətinin səmərəli icrasında əsas rol oynayan amillərdən biri, büdcə qanunvericiliyinə əməl olunmasına yönəlmiş ilkin nəzarət mexanizmləridir. Bu nəzarət, vahid

xəzinə hesabının aparılması, daxilolmaların düzgün uçotu, öhdəliklərin götürülməsi və bu öhdəliklər üzrə ödənişlərin icrası zamanı səlahiyyətlərin keyfiyyətli həyata keçirilməsi əsasında formalaşır. Büdcə prosesinin iştirakçıları tərəfindən vahid qaydalara riayət olunması və dövlət və yerli büdcələrin icrası üzrə hesabatların vaxtında təqdim edilməsi, maliyyə intizamının möhkəmləndirilməsinə şərait yaradır.

Maliyyə nəzarəti sahəsində aparılan təhlillər göstərir ki, büdcə gəlir və xərclərinin həcminin artması, dövlət mülkiyyətindən istifadədən əldə olunan daxilolmaların genişlənməsi və ictimai satınalmalar üzrə xərclərin yüksəlməsi, nəzarət mexanizmlərinin funksional imkanlarının gücləndirilməsini zəruri edir. Bu şəraitdə, daxili nəzarət və audit bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi, rəqəmsallaşma kontekstində daxili dövlət maliyyə nəzarətinin yeni konseptual modelinin əsaslandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar sübut edir ki, dövlət idarəetmə mexanizmləri məqsədlərə nail olmaq üçün istifadə olunan alətlərdir və onların effektivliyi mövcud maliyyə, təşkilati və normativ resursların səviyyəsindən asılıdır. Bu səbəbdən, daxili dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi və onun bütövlüyünün təmin edilməsi, maliyyə, təşkilati və hüquqi mexanizmlərin qarşılıqlı və koordinasiyalı şəkildə tətbiqi ilə mümkün olur. Dövlət idarəetməsində təşkilati mexanizmin sistemyaradıcı funksiyası, nəzarət sisteminin daxili strukturunun formalaşdırılması və onun elementləri arasında əlaqələrin nizamlanması ilə xarakterizə olunur.

Bu baxımdan, daxili dövlət maliyyə nəzarətinin təşkilati strukturu müxtəlif nəzarət növlərini (yuxarı, xarici və daxili nəzarət), əsas prinsipləri (məcburilik, dövrilik, prioritetlik), tətbiq formalarını (ilkin, cari və sonrakı nəzarət), metodları (təhlil, audit, yoxlama), nəzarət elementlərini (subyekt, obyekt və predmet) və nəzarətin xarakterini (planlı, plansız, əlavə) özündə birləşdirən kompleks sistem kimi çıxış edir. Dövlət maliyyə nəzarəti sistemində formalaşdırıcı mexanizmin struktur əlaqələrinin dərindən öyrənilməsi, bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi zərurəti ilə şərtlənir. Sistem elementləri arasında qarşılıqlı inteqrasiyanın gücləndirilməsi, onların iyerarxik uyğunlaşdırılması yolu ilə həyata keçirilə bilər.

Bu yanaşma, nəzarət formaları ilə metodlar arasında uyğunluğun təmin edilməsinə, hər bir nəzarət növünün prioritetliyinin müəyyənləşdirilməsinə və nəzarət tədbirlərinin zərurilik və dövrilik prinsipləri əsasında planlaşdırılmasına imkan yaradır. Nəzarət kateqoriyaları, növləri, formaları və metodları üzrə metodoloji qeyri-müəyyənliyin aradan qaldırılması, daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişafında əsas istiqamətlərdən biri hesab olunur. Nəzarət tədbirlərinin planlaşdırılması və icrası zamanı prioritetlik, zərurilik və müntəzəmlik prinsiplərinə riayət olunması, sistemin bütövlükdə fəaliyyət keyfiyyətini yüksəldir və dövlət maliyyə resurslarının bütün növləri üzrə effektiv nəzarətin həyata keçirilməsini təmin edir. Bu baxımdan, daxili dövlət maliyyə nəzarətinin vahid və sistemli inkişafını təmin edən normativ-hüquqi çərçivənin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Belə bir çərçivə, daxili dövlət maliyyə nəzarətinin müasir konseptual modelini təsbit etməklə sistemin deformasiyasının qarşısını alar və onun dayanıqlılığını möhkəmləndirər. Nəticədə, rəqəmsallaşma şəraitində daxili dövlət maliyyə nəzarətinin ümumi effektivliyi yüksələr (Kozhina, V. O., və b.,2021).

**Azərbaycanda daxili dövlət maliyyə nəzarəti**

Azərbaycanda daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişafı, normativ-hüquqi bazanın ardıcıl şəkildə formalaşdırılması və metodoloji mexanizmlərin təkmilləşdirilməsi ilə xarakterizə olunur. Bu baxımdan, maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsini tənzimləyən qaydalar, nəzarət prosesinin hüquqi və təşkilati əsaslarını müəyyən edən mühüm normativ çərçivə kimi çıxış edir. Sözügedən sənəd, müvafiq icra hakimiyyəti orqanlarının hüquqi aktlarına əsaslanmaqla, dövlət büdcəsindən ayrılan vəsaitlərin, məqsədli fondların və digər maliyyə mənbələrinin qanuni və səmərəli istifadəsinə nəzarətin mərhələli şəkildə aparılmasını təmin edir. Maliyyə nəzarəti prosedurlarında risklərin qiymətləndirilməsi, illik və perspektiv iş planlarının hazırlanması, plandankənar yoxlamaların təşkili, nəzarət tədbirlərinin icrası və nəticələrin rəsmi sənədlərlə təsdiqlənməsi əsas mərhələlər kimi müəyyən olunur.

Bu mexanizmlər, nəzarət fəaliyyətinin obyektivliyini, şəffaflığını və hüquqi əsaslara söykənməsini təmin etməklə yanaşı, onun praktiki səmərəliliyinin artırılmasına yönəlmişdir. Müəyyən edilmiş qaydalar çərçivəsində həm mərkəzi, həm də regional strukturların funksional səlahiyyətləri aydın şəkildə tənzimlənir, nəzarət prosesində institusional koordinasiya gücləndirilir. Daxili dövlət maliyyə nəzarəti sisteminin institusional möhkəmləndirilməsində, nəzarət xidmətinin əməkdaşlarının hüquq və vəzifələrinin dəqiq müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, onların fəaliyyətinə nəzarət mexanizmlərinin mövcudluğu, nəzarət tədbirlərinin peşəkarlıq və məsuliyyət prinsipləri əsasında həyata keçirilməsinə şərait yaradır. Ciddi maliyyə pozuntuları və inzibati xətalar aşkar edildikdə hüquqi nəticələrin tətbiqi, habelə aidiyyəti qurumlarla qarşılıqlı əməkdaşlıq mexanizmləri institusional nəzarətin effektivliyini artıran amillər sırasında yer alır. Bu yanaşma, maliyyə nəzarətinin korrupsiya risklərinin azaldılmasına və dövlət maliyyə intizamının gücləndirilməsinə xidmət edən hüquqi baza rolunu oynadığını təsdiqləyir (https://e-qanun.az/framework/25478).

Daxili dövlət maliyyə nəzarətinin hüquqi çərçivəsi, maliyyə sisteminin şəffaf və səmərəli idarə olunmasını təmin edən qanunvericilik və normativ aktların məcmusu kimi formalaşır. Bu çərçivə, maliyyə resurslarının düzgün bölüşdürülməsi və istifadəsi üzərində sistemli nəzarətin həyata keçirilməsini hədəfləyir. Hüquqi əsaslar, həm icraedici qurumların, həm də müstəqil nəzarət mexanizmlərinin fəaliyyəti vasitəsilə maliyyə intizamının qorunmasına xidmət edir. Müvafiq normativ aktlar, maliyyə institutlarının fəaliyyət istiqamətlərini, hesabatlılıq tələblərini və maliyyə siyasətinin icra mexanizmlərini tənzimləyərək institusional sabitliyi gücləndirir. Bu kontekstdə pul siyasətinin tənzimlənməsi, büdcə nəzarətinin gücləndirilməsi və maliyyə açıqlığının artırılması daxili maliyyə nəzarətinin əsas funksional istiqamətləri kimi çıxış edir. Hüquqi çərçivənin beynəlxalq standartlarla uzlaşdırılması isə nəzarət sisteminin müasir tələblərə uyğunlaşdırılmasını təmin edir.

Qanunvericilik aktları maliyyə nəzarətinin təşkilati strukturunu, prosedur qaydalarını və məsuliyyət mexanizmlərini müəyyən etməklə sistemin institusional bütövlüyünü möhkəmləndirir. Maliyyə nəzarətində nəzarət orqanlarının rolu, maliyyə sisteminin etibarlılığının qorunmasında və risklərin idarə olunmasında xüsusi əhəmiyyət daşıyır. Bu orqanlar, nəzarət, tənzimləmə və icra funksiyalarını yerinə yetirməklə maliyyə əməliyyatlarının qanunvericiliyə uyğunluğunu təmin edir. Eyni zamanda, qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması, maliyyə hesabatlarının dəqiqliyinin yoxlanılması və risklərin vaxtında aşkarlanması institusional nəzarətin əsas vəzifələri sırasında yer alır. Nəzarət orqanlarının analitik fəaliyyətləri və mütəmadi monitorinqləri, daxili dövlət maliyyə nəzarəti sisteminin davamlı inkişafına və onun səmərəliliyinin artırılmasına xidmət edir.

**Maliyyə nəzarətində informasiya texnologiyalarının rolu**

Daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişafında informasiya texnologiyalarının tətbiqi müasir dövrdə əsas prioritet istiqamətlərdən biri kimi çıxış edir. Rəqəmsal alətlər maliyyə fəaliyyətlərinin idarə olunmasında operativliyi artırır, məlumatların toplanması, emalı və təhlili proseslərini sürətləndirir, nəzarət mexanizmlərinin keyfiyyətini yüksəldir. İnformasiya texnologiyalarının tətbiqi nəticəsində qərar qəbuletmə prosesi daha əsaslandırılmış və şəffaf xarakter alır. Maliyyə nəzarətində istifadə olunan informasiya sistemləri mühasibat uçotunun və maliyyə hesabatlarının dəqiqliyini təmin edən kompleks mexanizmlərdir. Bu sistemlər müxtəlif mənbələrdən daxil olan məlumatları vahid platformada cəmləşdirir, real vaxt rejimində analitik emal aparır və nəzarət subyektlərinə operativ informasiya təqdim edir. Belə yanaşma, maliyyə idarəçiliyində strateji qərarların qəbulunu asanlaşdırmaqla yanaşı, nəzarət tədbirlərinin nəticəliliyini də artırır. İnformasiya texnologiyalarının maliyyə nəzarətinə inteqrasiyası, xüsusilə resursların planlaşdırılması və istifadəsinə nəzarət baxımından əhəmiyyətlidir. Müasir idarəetmə sistemləri büdcə planlaşdırılması, öhdəliklərin uçotu, risklərin qiymətləndirilməsi və maliyyə proqnozlarının hazırlanması proseslərini dəstəkləyir. Analitik alətlərin tətbiqi, maliyyə axınlarının daha dərindən təhlil olunmasına və potensial pozuntuların vaxtında aşkarlanmasına imkan yaradır (Otero, A.R., və b., 2020).

Maliyyə əməliyyatlarının real vaxt rejimində izlənməsi nəzarət mexanizmlərinin preventiv xarakterini gücləndirir. Bu imkan, maliyyə intizamının pozulması, kənar müdaxilələr və səmərəsiz xərcləmələrin qarşısının alınmasında mühüm rol oynayır. Aparılan sistemli analizlər risklərin idarə edilməsini asanlaşdırır və nəzarət tədbirlərinin məqsədyönlü şəkildə planlaşdırılmasına şərait yaradır. İnformasiya texnologiyalarının tətbiqi, həmçinin mühasibatlıq məlumatlarının standartlaşdırılması, qorunması və hüquqi tələblərə uyğunluğun təmin edilməsi baxımından əhəmiyyət daşıyır. Məlumatların saxlanması və ötürülməsi ilə bağlı normativ tələblərə riayət olunması, daxili dövlət maliyyə nəzarətinin institusional dayanıqlığını gücləndirir. Nəticədə, informasiya sistemlərinin düzgün tətbiqi maliyyə potensialının artırılmasına və nəzarət mexanizmlərinin effektivliyinin yüksəldilməsinə xidmət edir.

**Maliyyə nəzarətinin beynəlxalq aspektləri və institusional inkişaf**

Daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişafı qlobal iqtisadi inteqrasiya şəraitində beynəlxalq təcrübənin və standartların nəzərə alınmasını zəruri edir. Maliyyə nəzarətinin beynəlxalq aspektləri, əsasən, vahid prinsiplərin tətbiqi, standartların uyğunlaşdırılması və milli sistemlərin qlobal maliyyə mühitinə inteqrasiyası ilə xarakterizə olunur. Bu yanaşma maliyyə şəffaflığının artırılmasına və hesabatlılığın gücləndirilməsinə xidmət edir. Beynəlxalq səviyyədə formalaşmış mühasibat və audit standartları maliyyə hesabatlarının müqayisəliliyini təmin edir, informasiya asimmetriyasını azaldır və nəzarət mexanizmlərinin etibarlılığını artırır. Bu standartların tətbiqi maliyyə risklərinin düzgün qiymətləndirilməsinə və investorların qərar qəbuletmə prosesində etibarlı informasiya ilə təmin olunmasına imkan yaradır. Nəticədə, maliyyə nəzarətinin institusional strukturu daha sistemli və çevik xarakter alır. Maliyyə nəzarətinin beynəlxalq aspektləri yalnız normativ standartlarla məhdudlaşmır, eyni zamanda qlobal maliyyə nəzarət institutlarının koordinasiyalı fəaliyyəti ilə tamamlanır. Bu qurumlar maliyyə sabitliyinin qorunması, risklərin azaldılması və ölkələrarası informasiya mübadiləsinin gücləndirilməsi məqsədilə analitik və metodoloji dəstək mexanizmləri formalaşdırır. Belə əməkdaşlıq, daxili maliyyə nəzarəti sistemlərinin institusional imkanlarını genişləndirir və onların qlobal çağırışlara uyğunlaşmasını təmin edir (Natarova, O., 2015).

Beynəlxalq standartlar daxili dövlət maliyyə nəzarətinin institusional inkişafında əsas normativ dayaq rolunu oynayır. Bu standartlar mühasibat uçotu, audit, risklərin idarə olunması və hesabatlılıq proseslərini vahid prinsiplər əsasında tənzimləyərək nəzarət mexanizmlərinin keyfiyyətini yüksəldir. Standartlaşdırılmış yanaşmalar maliyyə məlumatlarının oxunaqlılığını və etibarlılığını artırır, nəzarət proseslərini daha şəffaf edir. Beynəlxalq standartların tətbiqi peşəkar bacarıqların inkişafına, etik davranış normalarının gücləndirilməsinə və maliyyə intizamının qorunmasına müsbət təsir göstərir. Bu yanaşma, daxili dövlət maliyyə nəzarətinin yalnız texniki deyil, institusional baxımdan da təkmilləşdirilməsinə imkan yaradır. Qlobal maliyyə nəzarət institutlarının fəaliyyəti isə böhran vəziyyətlərində risklərin idarə olunmasını asanlaşdırır və maliyyə sistemlərinin dayanıqlığını gücləndirir (Hendriks, C.J. 2012).

İnformasiya texnologiyalarının tətbiqi, beynəlxalq standartların inteqrasiyası və qlobal nəzarət mexanizmləri ilə qarşılıqlı əlaqə, daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişaf strukturunun formalaşmasında əsas amillər kimi çıxış edir. Bu komponentlərin uzlaşdırılmış şəkildə tətbiqi, maliyyə nəzarətinin səmərəliliyini artırır və onun müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsini təmin edir.

## NƏTİCƏ

Aparılan təhlillər göstərir ki, daxili dövlət maliyyə nəzarəti sistemi dövlət maliyyə idarəçiliyinin səmərəliliyini və dayanıqlığını təmin edən əsas institusional mexanizmlərdən biridir. Bu sistemin effektiv fəaliyyəti hüquqi-normativ bazanın möhkəmliyi, təşkilati strukturun funksionallığı və nəzarət alətlərinin düzgün tətbiqi ilə birbaşa bağlıdır. Maliyyə nəzarətinin institusional inkişafı, büdcə resurslarının məqsədyönlü istifadəsinin təmin olunmasına, maliyyə risklərinin qabaqlanmasına və ictimai vəsaitlərə etimadın artırılmasına xidmət edir. Araşdırma nəticələri onu göstərir ki, nəzarət mexanizmlərinin yalnız reaktiv deyil, eyni zamanda preventiv xarakter daşıması maliyyə intizamının möhkəmləndirilməsində mühüm rol oynayır. Rəqəmsallaşma və informasiya texnologiyalarının inteqrasiyası nəzarət proseslərinin

operativliyini və şəffaflığını artıraraq qərar qəbuletmənin keyfiyyətini yüksəldir. Beynəlxalq standartların tətbiqi isə maliyyə hesabatlılığının müqayisəliliyini təmin etməklə institusional nəzarətin etibarlılığını gücləndirir. Beləliklə, daxili dövlət maliyyə nəzarəti sisteminin institusional inkişafı və təkmilləşdirilməsi dövlət maliyyə siyasətinin effektiv icrası və uzunmüddətli iqtisadi dayanıqlığın təmin olunması baxımından həlledici əhəmiyyət kəsb edir. Araşdırmaya əsasən aşağıdakı təklifləri qeyd edə bilərik:

- Daxili dövlət maliyyə nəzarəti üzrə vahid və sistemli metodoloji çərçivənin hazırlanması və nəzarət subyektləri arasında tətbiqinin təmin edilməsi;
- Risk əsaslı nəzarət modelinin genişləndirilməsi və ilkin nəzarət mexanizmlərinin institusional səviyyədə gücləndirilməsi;
- İnformasiya texnologiyalarının tətbiq dairəsinin artırılması, xüsusilə real vaxt rejimli monitorinq və analitik sistemlərin inkişaf etdirilməsi;
- Nəzarət orqanları arasında funksional koordinasiyanın və məlumat mübadiləsinin institusional mexanizmlərlə möhkəmləndirilməsi;
- Beynəlxalq maliyyə nəzarəti standartlarının milli sistemlə tam inteqrasiyasının təmin olunması;
- Nəzarət əməkdaşlarının peşəkar hazırlıq səviyyəsinin artırılması və etik standartların gücləndirilməsi.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Bagwe, C. (2024). Assessing financial control systems-metrics and tools for evaluation. International Journal of Management (IJM), 15(1).

**2.** Eliseeva, E., Kostygova, L., & Vikhrova, N. (2020). Basic Principles and Criteria for Evaluating the Financial Policy of a Corporation. DIGITAL FINANCE 2020 (DF2020), 98.

**3.** Hendriks, C.J. (2012). Integrated Financial Management Information Systems: Guidelines for effective implementation by the public sector of South Africa. South African Journal of Information Management, 14(1), 1-9.

**4.** Ivanyos, J. (2007). Implementing process assessment model of internal financial control. The International SPICE Days, Frankfurt/Main, Germany.

**5.** Kozhina, V.O., Zavalko, N.A., Matyunina, O.E., Dyakova, G.S., Amirova, N.R., & Sargina, L.V. (2021). Formation of the state financial control system in the context of digitalization. Academy of Strategic Management Journal, 20(SpecialIssue3), 1-9.

**6.** Natarova, O. (2015). Assessment of the state financial control condition in the public sector. Economic Annals-XXI/Ekonomìčnij Časopis-XXI.

**7.** Otero, A.R., Sonnenberg, C., & Delgado-Perez, I. (2020). Change Management Over Financial Information: A Multi-Criteria Evaluation of System Change Controls Using Desirability Functions. Communications of the IIMA, 18(1), 1.

**8.** Vovk, V., Zhezherun, Y., Bilovodska, O., Babenko, V., & Biriukova, A. (2020). Financial monitoring in the bank as a market instrument in the conditions of innovative development and digitalization of economy: Management and legal aspects of the risk-based approach. International Journal of Industrial Engineering & Production Research.

**9.** Zdyrko, N.G., Polova, O.L., Mulyk, T.O., Tomchuk, O.F., Mulyk, Y.I., Kozachenko, A.Y., ... & Mashevska, A.A. (2022). Financial control, analysis and audit as tools of an effective management system: state, problems, prospects.

**10.** https://e-qanun.az/framework/25478



**Sh.E.Mammadova**

*master student, Azerbaijan State University of Economics*

## Institutional development structure of the domestic state financial control system and its improvement


**Abstracr**

*The study is devoted to examining the institutional development structure of the internal state financial control system and the directions of its improvement. In modern management conditions, internal state financial control acts as one of the main mechanisms ensuring the efficient, targeted and legislative use of state financial resources. The study systematically analyzed the legal and regulatory framework, organizational structure, functional tools of financial control and their interaction. It was determined that the effective functioning of financial control has a direct impact on strengthening budget discipline, preventing financial risks and increasing trust in public funds. The results show that the strength of the legal framework, functional capabilities and professional potential of control bodies play a decisive role in the institutional development of internal financial control. At the same time, the integration of accounting, internal audit and risk management mechanisms has been identified as the main factors increasing the efficiency of the control system. The application of information technologies creates conditions for real-time monitoring of financial transactions, conducting analytical analyses and improving the quality of the decision-making process. The application of international financial control standards and taking into account global experience ensure transparency and comparability of financial reporting. The institutional development and continuous improvement of the financial control system is of great importance for the effective implementation of state financial policy.*



***Keywords:*** *state control, institutional development, financial control, control mechanisms, international standards.*